| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 17.07.2021 |
| QEYDİYYAT NÖMRƏSİ | 219 |
| ADI | Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamənin və Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması qaydasının təsdiq edilməsi barədə” 1999-cu il 15 mart tarixli 39 nömrəli, “Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə” 1999-cu il 15 mart tarixli 40 nömrəli, “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamənin və Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 1999-cu il 15 mart tarixli 41 nömrəli və “Nəqliyyat vasitələrinə rəqəmlərin və hərflərin kombinasiyası üzrə dövlət qeydiyyat nişanlarının verilmə Qaydası”nın təsdiq edilməsi barədə” 2013-cü il 20 dekabr tarixli 345 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Xalq Qəzeti (Dərc olunma tarixi: 24.07.2021, Nəşr Nömrəsi: 151), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31.07.2021, Nəşr nömrəsi: 7, Maddə nömrəsi: 881) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 24.07.2021 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 370.050.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 14202107170219 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 27.07.2021 |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamənin və Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması qaydasının təsdiq edilməsi barədə" 1999-cu il 15 mart tarixli 39 nömrəli, "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə" 1999-cu il 15 mart tarixli 40 nömrəli, "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamənin və Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 1999-cu il 15 mart tarixli 41 nömrəli və "Nəqliyyat vasitələrinə rəqəmlərin və hərflərin kombinasiyası üzrə dövlət qeydiyyat nişanlarının verilmə Qaydası"nın təsdiq edilməsi barədə" 2013-cü il 20 dekabr tarixli 345 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 269-VIQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 aprel tarixli 1311 nömrəli Fərmanının 3.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 3, maddə 195; 2001, 10, maddə 663; 2003, 6, maddə 342; 2006, 5, maddələr 463, 472, 9, maddə 822, 10, maddə 902, 11, maddə 989; 2008, 2, maddələr 116, 125, 8, maddə 782; 2009, 6, maddə 491; 2010, 8, maddə 764; 2011, 5, maddə 454; 2012, 2, maddə 185, 5, maddə 486; 2013, 5, maddə 574, 6, maddə 747, 8, maddə 1001; 2014, 5, maddə 551, 8, maddə 1020, 12, maddə 1684; 2015, 4, maddələr 462, 468, 8, maddə 971; 2016, 2 (II kitab), maddə 385, 4, maddə 815; 2017, 4, maddə 620, 6, maddə 1246, 8, maddə 1628; 2018, 5, maddə 1118, 9, maddə 1917, 10, maddələr 2166, 2175; 2020, 10, maddələr 1276, 1281) ilə təsdiq edilmiş "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"nin 1.3-cü bəndinin birinci abzasında, 1.9-cu bəndində, 2.6-cı bəndinin birinci abzasının birinci cümləsində və üçüncü abzasında "və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi" sözləri ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 3, maddə 196; 2001, 10, maddə 663; 2003, 6, maddə 342; 2005, 4, maddə 386; 2006, 5, maddə 463, 9, maddə 822; 2008, 2, maddə 125, 8, maddə 782; 2011, 5, maddə 455; 2012, 5, maddə 487, 7, maddə 776, 9, maddə 921; 2013, 6, maddə 575, 8, maddə 1021, 11, maddə 1462; 2015, 4, maddələr 463, 467; 2016, 2 (II kitab), maddə 386, 4, maddə 810; 2017, 4, maddələr 620, 646; 2018, 5, maddə 1119, 10, maddələr 2166, 2175, 11, maddə 2442) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında nümunəvi Əsasnamə"nin 1.6-cı, 2.5-ci və 4.1-ci bəndlərində "və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi" sözləri ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 3, maddə 197; 2003, 6, maddə 342; 2006, 9, maddə 822, 11, maddə 989; 2008, 2, maddələr 116, 125, 9, maddə 853, 10, maddə 928; 2009, 6, maddə 491; 2010, 8, maddə 764; 2011, 6, maddə 566; 2012, 1, maddə 36, 5, maddə 488, 12, maddə 1352; 2013, 5, maddə 576, 7, maddə 876, 8, maddə 998, 10, maddə 1211, 11, maddə 1463; 2016, 4, maddə 778, 5, maddə 965; 2017, 2, maddələr 276, 299, 5, maddələr 978, 982; 2018, 5, maddə 1120, 11, maddə 2443, 12 (II kitab), maddə 2737; 2019, 1, maddə 154, 3, maddə 569, 12, maddə 2094; 2020, 10, maddə 1291; 2021, 4, maddə 411) ilə təsdiq edilmiş "Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamə"nin 1.7-ci, 3.9-4-cü və 3.15-2-ci bəndlərində "və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi" sözləri ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 20 dekabr tarixli 345 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 12, maddə 1635; 2018, 5, maddə 1121) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə rəqəmlərin və hərflərin kombinasiyası üzrə dövlət qeydiyyat nişanlarının verilmə Qaydası"nın 2.2.3-cü və 2.2.3-1-ci yarımbəndlərində, 3.6-cı bəndinin birinci cümləsində, 3.8-ci bəndinin üçüncü cümləsində "və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi" sözləri ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə" sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 17 iyul 2021-ci il
219